# Mədəniyyətimizin təəssübkeşi



***-Mingəçevir şəhəri özünün müasirliyi və mədəniyyəti ilə həmişə seçilib. Mingəçevir tariximizə işıq şəhəri kimi daxil olub. Böyük çətinliklərə baxmayaraq son aylarda şəhər icra hakimiyyəti başçısının təşkilatçılıq işinin və xüsusi qayğısının nəticəsi olaraq şəhərdə böyük abadlıq və yenidənqurma işləri görülür. Son 5-6 ildə isə baxımsızlıq üzündən şəhərimiz bərbad vəziyyətə düşmüşdü.***

Belə ki, şəhərin küçə və meydanları, parkları və istirahət yerlərinə ögey münasibətin nəticəsi olaraq qayğı göstərilməmişdi. Şəhərin küçələri, səkiləri, asfalt döşəmələri tamamilə dağıdılmışdı. Sel-suların qarşısını almaq üçün kanalın təmiri və təmizlənməsi tamamilə unudulmuşdu. İşıq və qaz problemləri həll edilməmişdi. Bir sözlə sabiq icra başçılarının təqsiri ucbatından Mincəçevir bərbad vəziyyətə düşmüşdü. Ölkə Prezidentinin fərmanı ilə Lütvəli Babayev 2005-ci ilin aprel ayının sonunda Mingəçevirə başçı təyin olunduqdan sonra şəhərdə abadlıq və yenidənqurma işləri vüsət aldı. İndi şəhərin küçə və meydanları, səkiləri yeni asfalt döşəmələri ilə əvəz olunub. 8 kmlik H.Əliyev prospektinə, 20 Yanvar, S.Vurğun, M.F.Axundov, N.Nərimanov prospektlərinə yeni asfalt döşəmələr çəkilmiş, səkilərə müasir memarlıq tələbinə uyğun olaraq plitələr düzülmüş, şəhərin hər yerində skamyalar qoyulmuş, ehtiyat kanalı təmir edilmiş, işıq və qaz problemləri həll edilmiş, şəhərdə olan bütün təşviqat materialları yenisi ilə əvəz edilmiş, şəhərin mədəniyyət müəssisələri, F.Qasımov adına incəsənət məktəbi, Ü.Hacıbəyov adına 1 saylı UMM, M.Davudov ad. DDT-ı əsaslı təmir edilmiş, şəhərin təhsil və səhiyyə müəssisələrinin təmiri və abadlaşması işləri görülür.

Müsahibimiz Mingəçevir Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdir əvəzi İdris Məmmədovdur. İdris müəllimi Mingəçevirdə yaxşı tanıyırlar. Bu sahə onun şəxsi təşəbbüsü, işgüzar əməyi və bilavasitə özünün iştirakı ilə inkişaf edib şaxələnibdir.

İdris Əziz oğlu Məmmədov 1958-ci ildə Mingəçevir Şəhər Mədəniyyət Şöbəsinin müdiri təyin edilmişdir. Onda onun 27 yaşı vardı. Həmin illərdə mədəniyyət sahəsində çox işlər görmək lazım idi. O vaxtlar şəhərdə cəmi 1 kitabxana, 1 klub müəssisəsi və 1 musiqi məktəbi vardı. İndi isə Mingəçevir Mədəniyyət vəTurizm Şöbəsinin tabeliyində 16 kütləvi kitabxana, 7 klub müəssisəsi, rəsm qalereyası, Dövlət Dram Teatrı, tarix muzeyi və onun filialları olan "Şəhidlərin xatirə muzey"ləri, şəhid F.Qasımov adına İncəsənət məktəbi, 2 uşaq musiqi məktəbi, mədəniyyət və istirahət parkları fəaliyyət göstərir.

Keçən il kitabxanaların kitab fondu 313132 nüsxə, oxucuların sayı 34653 nəfər olmuşdur. 2005-ci ildə MKS-nə 9929 nüsxəsi latın qrafikalı ədəbiyyat alınmışdır. Bu kitablardan 9250 nüsxə Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il tarixli 56 saylı sərəncamı ilə alınmışdır. 414 nüsxə Respublika Kitabxana Kollektorundan, 265 nüsxə isə ABŞ səfirliyi tərəfindən hədiyyə edilmişdir.

Mədəniyyət müəssisələri dövrü mətbuata olan tələbatını ödəmək üçün 16 adda qəzet və jurnala abunə yazılmışdır. ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən 2005-ci ilin aprel ayından kitabxanamıza 5 kompüter, 1 ədəd printer, 1 ədəd generator verilmişdir.

Gənclərin hərbi xidmətə yola salınma mərasimində mədəniyyət müəssisələrinin özfəaliyyət kollektivləri dəfələrlə geniş konsert proqramları ilə çıxış etmişlər. Eyni zamanda bədii-özfəaliyyət kollektivləri yerli və hamilikdə olan "N" hərbi hissələrdə əsgər və zabitlər qarşısında konsertlər təşkil etmişlər.

Mədəniyyət sahəsində uğurlarımız da az olmamışdır. Ü.Hacıbəyov adına 1 saylı, Bülbül adına 2 saylı UMM-nin, şəhid F.Qasımov adına incəsənət məktəbinin xor kollektivləri Yevlax şəhərində respublika baxışının I turunda uğurla çıxış etmişdilər. 1 və 2 saylı uşaq musiqi məktəblərinin kollektivləri birinci yeri tutmuşlar. Bakı şəhərində keçirilmiş II turda isə Ü.Hacıbəyov adına 1 saylı UMM-nin xor kollektivi üçüncü dərəcəli diploma layiq görülürdü.

Uşaq muğam ifaçılarının Astarada keçirilən II respublika müsabiqəsində isə şəhid F.Qasımov adına incəsənət məktəbinin səs şöbəsinin üçüncü sinif şagirdi Nərgiz Yusibova fərqlənmə diplomuna layiq görülmüşdür, H.Əliyev adına sarayda keçirilən yekun konsertdə





uğurla çıxış etmişdir.

Qarabağ uğrunda qəhrəmancasına şəhid olan Malik Əsədovun, Ruslan Muradovun, Dilqəm Nağıyevin, Rəşad Murabovun büstləri Şəhidlər muzeyinin ekspozisiyasında saxlanılır. "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmiş Azər Niftəliyevin, Cəmil Əliyevin, Mehman Bəkirovun, İlqar Kişiyevin, Müşfiq Mirzəyevin, Yaşar Məmmədzadənin, Tofiq Ruşanovun kətan üzərində işlənmiş portretləri muzeydə saxlanılır.

Xocalı sakinlərinin xahişi ilə kətan üzərində yağlı boya ilə iri həcmdə hazırlanmış "Xocalı soyqırımı" kompozisiyası "Şəhidlərin xatirə" muzeyində nümayiş etdirilir. Bununla yanaşı MKS-də ermənilərin Azərbaycanlılara qarşı soyqırımı və işğal altında qalan Azərbaycan torpaqlarının ərazisini əks etdirən iri həcmli panolar hazırlanmışdır. Mədəniyyət müəssisələrində 48 nəfər məcburi köçkünlər ixtisasları üzrə işlə təmin edilmişdir, 102 nəfər qaçqın uşağı musiqi məktəblərində pulsuz təhsil alır və 14 qaçqın ailəsi mədəniyyət işçiləri tərəfindən hamiliyə götürülmüşdür.

İdris müəllimi həmişə mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi düşündürür. Bu barədə onunla söhbət edərkən bildirirdi ki, şəhid A.Niftəliyev adına "Energetiklər" mədəniyyət evi, M.Hüseyn adına 2 saylı filial kitabxana, M.Müşfiq adına Gənclər kitabxanası, A.Şaiq adına 8 saylı filial kitabxana, rəsm qalereyası, "Şəhidlər" xatirə muzeyi, şəhid F.Qasımov adına incəsənət məktəbi, 1 saylı uşaq musiqi məktəbləri, N.Nərimanov adına mədəniyyət evi, tarix muzeyi əsaslı təmir edilmiş, N.Gəncəvi adına kitabxana hər bir şəraiti olan binaya köçürülmüşdür. Mədəniyyət müəssisələrinin maddi texniki bazasını möhkəmlətmək məqsədi ilə mədəni-maarif müəssisələrinə və uşaq musiqi məktəblərinə musiqi alətləri, stol, stul, kitab rəfləri və s. inventar və avadanlıqlar alınmışdır.

Bax bu qayda üzrə artıq 47 ilə yaxındır ki, İdris müəllim Mingəçevir şəhərinin mədəni həyatında rəhbər vəzifədə çalışır. Dəfələrlə orden və medallarla təltif edilmişdir.

İdris Əziz oğlu Məmmədov 1931-ci il mart ayının 29-da Ağdaş rayonunun Qaradağlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1946-cı ildə Ağdaş Pedaqoji məktəbini, 1950-ci ildə Şəki müəllimlər institutunu, 1961-ci ildə V.İ.Lenin adına APİni bitirib. 1951-1953-cü illərdə Sovet ordusunda xidmət etmiş, 1953-cü ilin sonundan 1958-ci ilin noyabr ayına kimi Mingəçevir pionerlər evində direktor vəzifəsində çalışmışdır. İdris müəllim 1955-ci ildə Səbirə xanımla ailə həyatı qurub. Qızları Tünzalə-ingilis dili müəlliməsi, Elmira-ədəbiyyat müəlliməsi, oğlu Azər-Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini və sonradan Polis Akademiyasını bitirmişdir. İdris müəllimlə Səbirə xanımın 5 nəvəsi var.

İdris müəllimlə söhbət zamanı əlimə bir kitab keçdi. Bu, jurnalist Pənah Qurbanzadənin "Onlar Mingəçeviri qurmuşlar" kitabı idi. Bu kitabda diqqətimi daha çox cəlb edən, şəhərin mötəbər ziyalılarından sayılan, şəhər qurucularından biri olan, həyatını mədəniyyətimizin inkişafına sərf edən İdris müəllimin fəaliyyətindən geniş bəhs edilməsi oldu. Fərəhli haldır ki, onun bu zəhmətinə böyük qiymət verən şəhər ictimaiyyəti İdris müəllimin anadan olmasının 70 illiyini "Arzu" şadlıq sarayında təntənəli şəkildə qeyd etmişdir.

İdris müəllim bildirdi ki, bu gün mədəniyyət işçilərinin qarşısında böyük vəzifələr durur. Mədəniyyəti qorumaq, milləti qorumaq deməkdir. Mədəniyyətimizi qorumaq, ona övlad münasibəti bəsləmək hamımızın vətəndaşlıq borcudur. Bu gün qorunan sənət nümunələri sabahın abidəsidir. Bu haqiqət mədəniyyət işçilərini daha çox narahat etməli, məsuliyyətimizi artırmalıdır.



O öz sahələrində fərqlənən işçilərdən bir neçəsinin adını qeyd edərək bildirdi ki, Ü.Hacıbəyov adına 1 saylı UMM-nin direktoru C.İsmayılov, MKS-nin direktoru E.Babayev, işçilərdən uşaq kitabxanasının müdiri Ballı Kərimova, gənclər kitabxanasının müdiri Səriyyə Hacıyeva, 1 saylı kitabxananın müdiri Reyhan Əliyeva, kitabişləmə şöbəsinin müdiri Yaqut İsmaylova, "Energetiklər" mədəniyyət evinin direktoru Qəzənfər Xabarov, "Gənclik" klubunun müdiri Rəhman Aslanov, 1 saylı musiqi məktəbinin dərs hissə müdiri Sevda Səlimova, müəllimlərdən Ağaismayıl Əzizov, Əhmədov Məmmədəli, 2 saylı musiqi məktəbinin dərs hissə müdiri Afət Ədili, müəllimlərdən Şakir Əzizov, Pənah Məmmədov, şəhid F.Qasımov adına İncəsənət məktəbinin direktoru Etibar Əliyev, müəllimlərdən Solmaz İmanova, Namiq Aslanov və başqaları öz vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

İdris müəllimin arzularını öyrənmək istədim. O, bildirdi ki, yeganə arzum tapdaq altında olan torpaqlarımızın yağı düşməndən azad olunması və yurd-yuvalarından didərgin düşmüş bacı və qardaşlarımızın öz doğma el-obalarına qayıtmasıdır.

***Söhbətimizin sonunda İdris müəllim "İşlədiyiniz illərdə bütün arzularınızı yerinə yetirə bilmisinizmi?" sualına təvazökarlıqla belə cavab verdi: "Bu illərdə elədiklərim az olmayıb, eləmək istədiklərim isə daha çoxdur..."***

***TURAL***